# AZƏRBAYCAN RESPUBLİKASI ƏHALİSİNİN SAY DİNAMİKASI VƏ YERLƏŞMƏSİ (1991-2008-ci illər)

**İ.A.MƏMMƏDOV**
***Gəncə Dövlət Universiteti***

1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini elan etdi. Digər postsovet respublikalarından fərqli olaraq bu proses Azərbaycanda çox ağrılı-acılı hadisələrlə müşayiət olunurdu. Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr ölkənin ictimai-iqtisadi, siyasi-hərbi durumu ilə yanaşı, demoqrafik vəziyyətini də kəskin şəkildə dəyişdi. Ermənistanın Qarabağı özünə birləşdirmək istəyi ilə başlanan hadisələr və Azərbaycanın buna kəskin etirazı, ilk növbədə etnik azərbaycanlıların Ermənistan SSR-dən qovulması ilə nəticələndi. Bunun nəticəsində də 250 mindən çox soydaşımız Qərbi Azərbaycandakı ata-baba yurdundan didərgin düşərək Azərbaycana pənah gətirdi (7, s.4). Azərbaycanın müstəqillik uğrunda mübarizəsi və mərkəz tərəfindən 1990-cı ilin qanlı yanvar hadisəsinin törədilməsi, Dağlıq Qarabağ və onun ətrafında hərbi əməliyyatların başlanması, Azərbaycan ərazisinin 20%-nin işğal edilməsi 20 mindən çox adamın həlak olmasına, 50 min nəfərin şikəstə çevrilməsinə, 660 min nəfərdən çox insanın öz vətənində məcburi köçkünə çevrilməsinə, 100 min nəfərin isə Ermənistanla sərhəd (6, s.4) bölgələrindən didərgin düşməsinə səbəb oldu. Qaçqınlar və məcburi köçkünlər, hələ də respublikamızın, demək olar ki, bütün rayonlarında səpələnmiş şəkildə yaşamaqdadırlar. Bütün bu hadisələr Azərbaycan Respublikasının demoqrafik durumunun əsas göstəricilərinə təsirsiz ötüşməmişdir. Bu prosesi izləmək üçün müstəqillik dövründə Azərbaycan Respublikası əhalisinin say dinamikasını nəzərdən keçirək (cədvəl №1) (2, s.44; 4, s.19).

**Azərbaycan Respublikası əhalisinin say dinamikası (1991-2005-ci illər)**

| İllər | Əhali 1000 nəfərlə | | | Butün əhaliyə görə %-lə | |
|---|---|---|---|---|---|
| | Cəmi | Artımı (+) Azalma (–) | | Şəhər əhalisi | Kənd əhalisi |
| | | Mütləq | %-lə | | |
| 1991 | 7218,5 | 86,6 | 1,2 | 53,5 | 46,5 |
| 1992 | 7324,1 | 105,6 | 1,5 | 53,0 | 47,0 |
| 1993 | 7440,0 | 115,9 | 1,6 | 52,8 | 47,2 |
| 1994 | 7549,6 | 109,6 | 1,5 | 52,6 | 47,4 |
| 1995 | 7643,5 | 93,9 | 1,2 | 52,4 | 47,6 |
| 1996 | 7726,2 | 72,7 | 0,9 | 52,2 | 47,8 |
| 1997 | 7799,8 | 77,0 | 0,9 | 52,0 | 48,0 |
| 1998 | 7876,7 | 76,9 | 0,9 | 51,8 | 48,2 |
| 1999 | 7953,4 | 76,7 | 0,9 | 51,1 | 48,9 |
| 2000 | 8016,2 | 62,8 | 0,8 | 51,0 | 49,0 |
| 2001 | 8081,0 | 64,8 | 0,8 | 50,8 | 49,2 |
| 2002 | 8141,4 | 60,4 | 0,7 | 50,7 | 49,3 |
| 2003 | 8202,5 | 61,1 | 0,7 | 50,7 | 49,3 |
| 2004 | 8265,7 | 63,2 | 0,7 | 51,5 | 48,5 |
| 2005 | 8347,3 | 81,6 | 0,9 | 51,5 | 48,5 |

Göründüyü kimi, Azərbaycan Respublikasının əhalisi 1991-2005-ci illərdə durmadan artmış və 1991-ci ildəki 7218,5 min nəfərdən 2005-ci ildə 8347,3 min nəfərə çatmışdır. Bu müddət ərzində ölkə əhalisi say etibarilə 1128,8 min nəfər artmışdır. Cədvəli diqqətlə nəzərdən keçirdikdə əvvəlki onilliklərə nisbətən XX əsrin son on ilində əhalinin artım sürətinin xeyli aşağı düşdüyünü müşahidə edirik. Belə ki, 1991-1995-ci illərdə Azərbaycan əhalisi hər il orta hesabla 1,2-1,6% artmışdır. XX əsrin 90-cı illərinin ikinci yarısında isə təbii artım azalmış və nəhayət sabitləşmişdir, yəni hər il 0,9% artmışdır.

2001-2005-ci illər arasında əhalinin artım sürəti həm aşağı düşmüş, həm də sabit olmamış, 0,7-0,9% arasında tərəddüd etmişdir. Onu da qeyd edək ki, SSRİ-nin mövcudluğunun son 10 ilində də (1981-1991-ci illər) əhalinin artım sürəti o qədər də yüksək olmamış və əhali hər il orta hesabla cəmi 1,3 -1,6% artmışdır. Sonrakı illərdə əhalinin sayının artma tempi daha da aşağı düşmüşdür. Bu proses keçmiş SSRİ məkanında olan bütün respublikalara, o cümlədən Cənubi Qafqaz respublikalarına da aiddir.

Belə ki, 1991-ci ildə Ermənistan əhalisi 74,4 min və ya 2,1% artdığı halda 2000-ci ildə 6,8 min və ya 0,17% artmışdır. Gürcüstanda isə vəziyyət bundan da pis olmuşdur. 1991-1999-cu illərdə Gürcüstanda əhali artmamış, əksinə 0,02-0,03% azalmışdır. 1996-cı ildən etibarən Gürcüstan əhalisi nisbətən artmağa başlamış və 2000-ci ildən 0,14%-dən – 0,78%-dək artmışdır. 2001-2005-ci illərdə isə Gürcüstanda əhali artımı olmamışdır (5, s.37).

Əhalinin say dinamikasına təsir göstərən ən mühüm amil təbii artımdır. Cədvəl №2-də 1991-2005-ci illərdə Azərbaycan Respublikasınca əhalinin təkrar istehsalının əsas göstəriciləri verilmişdir (Cədvəl №2) (3, s.99).

**Azərbaycan Respublikasının əhalisinin təkrar istehsalı (1991-2005-ci illər)**

| İllər | Əhalinin hər 2000 nəfərinə | | | hər 1000 nəfərə diri doğulub 1 yaşa qədər ölən uşaqlar |
|---|---|---|---|---|
| | doğulanlar | ölənlər | təbii artım | |
| 1991 | 26,6 | 6,3 | 20,3 | 25,3 |
| 1992 | 25,0 | 7,1 | 17,9 | 25,5 |
| 1993 | 23,7 | 7,2 | 16,5 | 28,2 |
| 1994 | 21,4 | 7,3 | 14,1 | 25,2 |
| 1995 | 18,9 | 6,7 | 12,2 | 23,3 |
| 1996 | 16,9 | 6,3 | 10,6 | 19,9 |
| 1997 | 17,1 | 6,1 | 11,0 | 19,6 |
| 1998 | 15,9 | 5,9 | 10,0 | 16,6 |
| 1999 | 14,9 | 5,9 | 9,0 | 16,5 |
| 2000 | 14,8 | 5,9 | 8,9 | 12,8 |
| 2001 | 13,8 | 5,7 | 8,1 | 12,5 |
| 2002 | 13,8 | 5,8 | 8,0 | 18,8 |
| 2003 | 14,0 | 6,0 | 8,0 | 12,2 |
| 2004 | 16,1 | 6,1 | 10,0 | 9,8 |
| 2005 | 17,2 | 6,3 | 10,9 | 9,3 |

Cədvəldəki faktlardan göründüyü kimi 1991-1994-cü illərdə Azərbaycan Respublikasında əhalinin 1000 nəfərinə düşən doğulanların sayı nisbətən yüksək olmuş (26,6-21,4), 1995-ci ildən başlayaraq bu rəqəm

azalmağa başlamış və bu azalma 2003-cü ilə qədər davam etmişdir. 2004-2005-ci illərdə isə əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı artmağa başlamışdır (16,1-17,2).

Doğumdan fərqli olaraq əhalinin hər 1000 nəfərinə düşən ölüm hallarının sayında elə ciddi dəyişiкliк olmamış və 1991-2005-ci illər ərzində 7,3-5,0 arasında tərəddüd etmişdir.

Müstəqilliyin on beş ili ərzində əhali içərisində baş vermiş doğum və ölüm hallarının miqdarı təbii artımı müəyyənləşdirmişdir. Belə кi, 1991-1995-ci illərdə əhalinin təbii artımı nisbətən yüкsəк olmuş və əhalinin hər 1000 nəfərinə 20,3-12,2 nəfər düşmüşdür. 1996-2003-cü illərdə isə əhalinin hər 1000 nəfərinə düşən təbii artım nəzərəçarpacaq dərəcədə azalmış və 10,6-8,0 bərabər olmuşdur. Doğumun artması ilə bağlı 2004-2005-ci illərdə təbii artım yüкsəlməyə başlamışdır (10,0-10,9).

Əhalinin say dinamiкasına təsir göstərən mühüm amillərdən biri hər 1000 nəfər diri doğulub 1 yaşa qədər ölən uşaqların sayıdır. Yaxşı haldır кi, 1991-2005-ci illərdə 2,7 dəfə azaldılaraq 25,3-dən 9,3-ə enmişdir. Əlbəttə bu əhalinin təbii artımına öz təsirini göstərmişdir.

Maraqlıdır кi, şəhər və кənd yaşayış məntəqələrində bu göstəricilər xeyli fərqlidir. Belə кi, 1991-ci ildə şəhər yerlərində əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı 23,5 olduğu halda, кənd yerlərində 30,2; 2005-ci ildə isə bu rəqəm müvafiq olaraq 15,1; 19,4-ə bərabər idi. Müstəqilliк dövründə şəhər və кənd yerlərində ölüm əmsalı deməк olar кi, bərabər olmuş, şəhər yerlərində 7,2-5,8, кənd yerlərində isə 7,3-5,6 arasında tərəddüd etmişdir. Bütün bunlar, əlbəttə əhalinin təbii artımında öz əкsini tapmışdır. 1991-ci ildə əhalinin hər 1000 nəfərinə düşən təbii artım şəhər yerlərində 17,4, кənd yerlərində isə 23,8 olmuşdur. Müstəqilliк dövrünün əvvəllərində həm şəhər, həm də кənd yerlərində hər 1000 nəfər diri doğulub 1 yaşa qədər ölən uşaqların sayı (şəhərdə 21,5; кənddə 28,7) кifayət qədər yüкsəк idi. Hətta, 1992-1993-cü illərdə кənd yerlərində bu rəqəm 30,9-33,2-ə qalxmışdır. Laкin sonraкı illərdə bu rəqəm azalmağa doğru getmiş və artıq 2005-ci ildə şəhər yerlərində bu rəqəm 10,1, кənd yerlərində isə daha az 8,6-a bərabər olmuşdur. Əlbəttə, bu çox yaxşı haldır кi, ölкəmizdə 1 yaşa qədər uşaq ölümü xeyli azalmış və кənd yerlərində bu rəqəm azalaraq inкişaf etmiş ölкələrdə mövcud olan rəqəmə yaxınlaşmışdır.

Doğum, ölüm və təbii artımda baş vermiş dəyişiкliкlər əhalinin yaş tərкibinə ciddi təsir göstərir. Doğumun azalmasıyla bağlı son zamanlar 0-4 yaş qrupuna daxil olan uşaqların sayı 1990-cı ildəкi 12,1%-dən 2005-ci ildə 6,9%-ə enmiş, yəni 5,2% azalmışdır. Bu proses 5-9 yaş qrupunda da özünü göstərmişdir. Yəni bu yaş qrupunda 15 il ərzində 3,2% azalma müşahidə edilir. Əкsinə 10-14, 15-19 yaş qruplarının əhalinin ümumi payında miqdarı artmışdır кi, bu da 10-15 il öncə respubliкada doğumun yüкsəк olması ilə bağlıdır (3, s. 44). Əhalinin müxtəlif yaş qruplarında baş vermiş dəyişiкliкləri nəzərdən кeçirdiкdə diqqəti bir məsələ də cəlb edir: əhalinin ümumi payında 65 yaşdan yuxarı olanların miqdarı.

Maraqlıdır кi, 1990-cı ildə, yəni müstəqilliк ərəfəsində 65 və ondan yuxarı yaşda olan əhali, ümumi əhalinin 4,8%-ni təşкil edirdi. 2005-ci ildə isə bu rəqəm 2,1% artaraq 6,9% olmuşdur.

Əhalinin demoкratiк durumunun mühüm göstəricilərindən biri, onun cins tərкibidir. Sovet dövrünün son onilliкlərində olduğu кimi, XX əsrin 90-cı illərinin əvvəllərində də əhalinin cinsi tərкibində qadın-

lar üstünlük təşkil edirdilər (51,2%). Lakin sonrakı illərdə əhalinin say tərkibində qadınlarla kişilər arasındakı say nisbəti tədricən azalaraq 51,2%-dən 50,8%-ə enmişdir. Onu da qeyd edək ki, bütün əhaliyə görə qadınlarla kişilər arasında say fərqi özünü ən çox qaçqın və məcburi köçkünlər arasında göstərir. Müstəqilliyin ilk ilində (1991) hər 1000 kişiyə düşən qadınların sayı 1048,3 nəfər idisə, 2005-ci ildə bu rəqəm azalaraq 1031,8 olmuşdur (3, s.29).

Müstəqillik dövründə əhalinin doğulanda gözlənilən ömür uzunluğuna dair göstəricilərdə də müsbət dəyişikliklər baş vermişdir. 1991-ci ildə kişilər arasında 66,3, qadınlar arasında isə 74,5 il olduğu halda, 2005-ci ildə bu rəqəm artaraq müvafiq olaraq 69,6 və 75,1 il olmuşdur. Doğulanda gözlənilən ömür uzunluğuna görə kişilərlə qadınlar arasında böyük fərqlər mövcuddur. Müstəqilliyin ilk ilində göstərilən ömür uzunluğu kişilər arasında 66,3 il olduğu halda, qadınlar arasında 74,5 il olmuşdur. Sonrakı illərdə bu fərq azalsa da (69,6; 75,1) yenə də qalmaqdadır (3, s. 111). Onu da qeyd edək ki, doğulanda gözlənilən ömür uzunluğu əhalinin yerləşməsindən, demək olar ki, asılı deyil, yəni şəhər və kənd məskənlərində yaşayan əhali içərisində ömür uzunluğu təxminən bərabərdir.

Əhalinin ən mühüm demoqrafik göstəricilərindən biri də onun şəhər və kənd məskənləri üzrə yerləşməsidir. XX əsrin 60-cı illərindən başlayaraq məskunlaşmada şəhər əhalisinin sayı artmağa başlamış və bu proses 80-cı illərin sonunda ən yüksək həddə çatmışdır. 1989-cu ildə əhalinin 54,2% şəhər məskənlərində yaşayırdı.

Müstəqilliyin ilk ilində də şəhər əhalisi ümumi əhalinin 53,5%-i təşkil edirdi. Lakin, ölkənin icitimai-iqtisadi həyatında baş vermiş bir sıra dəyişikliklərlərdən sonra kənd əhalisinin sayı artaraq 46,5%-dən 48,4%-ə çatmışdır. Bu son dövrlərdə yerlərdə əhalinin məşğulluğunun artırılmasıyla bağlı görülən tədbirlərlə bağlıdır. 2001-2003-cü illərdə şəhər və kənd əhalisinin nisbəti az qala bərabərləşsə də 2004-2005-ci illərdə şəhər əhalisinin sayı yenidən artmağa başladı.

Son zamanlar əhalinin demoqrafik durumunda mövcud olan mənfi meylləri aradan qaldırmaq məqsədilə xeyli iş görülmüş və Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı (1, s. 3198-3224) (11 noyabr 2004-cü il) qəbul edilmişdir.

**QEYDLƏR:**


1. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı // Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004, №11, s. 3198-3224.
2. Azərbaycanda ailələr. 2005. Bakı: 2005, 394 s.
3. Azərbaycanın demoqrafik göstəriciləri. 2006. Bakı: 2006, 427 s.
4. Azərbaycan əhalisi. 2005. Bakı: 2005, 115 s.
5. Həsənova L.L. Cənubi Qafqaz Respublikalarında demoqrafik durumun bəzi problemləri // Tarix və onun problemləri. Bakı: 2007, №3, s. 36-40.
6. Краткая информация об истории Карабаха. // Из серии «Карабахские реалии». Фонд Гейдара Алиева. Баку: 2006, 14 с.
7. Начало Карабахского конфликта // Из серии «Карабахские реалии». Фонд Гейдара Алиева. Баку, 2006, 14 с.

## ДИНАМИКА ЧИСЛЕННОСТИ НАСЕЛЕНИЯ И ЕЕ РАЗМЕЩЕНИЯ НА ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1991 – 2005-е ГОДЫ)

**И.А.МАМЕДОВ**

**РЕЗЮМЕ**

Борьба Азербайджана за независимость, проведение «Красного января» 1990-го года со стороны Центра, события в Нагорном Карабахе и военные операции вокруг него в корне изменили демографическое положение в республике. Это, в первую очередь, оказало серьезное влияние на динамику численности населения и размещение. Снизился уровень рождаемости, естественный прирост, сотни тысяч людей были превращены в беженцев и вынужденных переселенцев, что в свою очередь, отразилось на размещении населения.

В последнее время с целью предотвращения отрицательных тенденций в демографическом положении, был проведен ряд мероприятий и принята государственная программа в области развития народонаселения и демографии Азербайджанской Республики.

## POPULATION CHANGES AND ITS ACCOMMODATION IN AZERBAIJAN REPUBLIC (1991 - 2005)

**I.A.MAMMADOV**

**SUMMARY**

Struggle for independence in Azerbaijan, implementation of “Blood January” in 1990s by the Center, Nagorny Karabakh conflict and military operations around it have radically changed demographic situation in republic. First of all, it had serious influence on population changes and its accommodation.

The birth rate, natural increase has decreased; hundred thousand of people have been transformed into refugees and displaced persons that were in turn reflected in accommodation of the population.

A number of measures have been taken recently to prevent negative tendencies in demographic position and the state program has been accepted in the development field of the population and demography of the Azerbaijan Republic.